# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

Qədim dövrlərin dini baxışlarını əks etdirən "Avesta"nı "Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrünə aid mətnlərdən" bilən İsa Həbibbəyli onun yaranma tarixinə aydınlıq gətirir: "Yaranma tarixi bizim eradan əvvəlki dövrlərə, təxminən, IV-III əsrlərə aid edilən "Avesta" Azərbaycanda ərəbdilli mənbələr və pəhləvi qaynaqları vasitəsilə tanınmış və yayılmışdır. "Avesta" Zərdüştlük təliminin təməl kitabı olsa da, burada Azərbaycanla, kitabda ifadə olunan kimi yazsaq, "Adurbadaqan"la səsləşən məqamlar, motivlər mövcuddur. "Avesta"da Azərbaycan coğrafiyasına aid olan Savalan dağı, Qarabağ, Qaradağ, Zəngəzur kimi toponimlərin, Qızılüzən, Kür, Araz çaylarının adlarının çəkilməsi "Avesta"dan Azərbaycan faktı kimi söz açmağa əsas verir. "Avesta" süjetlərinin Azərbaycanın Manna-Midiya dövrləri ilə səsləşməsi ehtimalını tariximizin və ədəbiyyatımızın bir çox qaynaqlarındakı məlumatlar təsdiq etməkdədir.

Eyni zamanda, "Avesta"dakı etnoqrafik materiallara toxunur. Kitabın "Vendidad", yaxud "Videvdad" adlanan bölmələrindəki "oturaq əkinçilik həyatı, əxlaqi-mənəvi dəyərlərin təbliği ilə əlaqədar olan təsvirlərdə bədiilik keyfiyyətləri də" müşahidə olunduğunu, "Avesta yəştləri" adlanan hissələrinin şeirlə yazılmış himnlərdən ibarət olduğunu bildirir.

İlk dəfə 2017-ci ildə "Avesta yəştləri" rus dilindən Azərbaycan dilinə sərbəst poetik şəkildə tərcümə olunub çap edilmişdir. Ədəbi-bədii xarakterinə görə "Avesta"dan "bəşər tarixinin erkən dövrlərində yaranan möhtəşəm sənət abidəsi" kimi bəhs edilməsini doğru bilir. "Avesta yəştləri" - "Avesta himnləri"ndən təhlillər verən İsa Həbibbəyli bu fikirdədir ki, "Avesta"dakı təntənəli ritorik üslub Azərbaycan ədəbiyyatının qədim dövrünün romantik əhvali-ruhiyyəsinin ibtidası kimi görünür. Bundan başqa, "Vendidad"da təsvir olunan bərabərlik üstündə qurulmuş ölkə ilə XII əsrdə Nizami Gəncəvinin "İsgəndərnamə" poemasının "İqbalnamə" hissəsində tərənnüm etdiyi bərabərlik ölkəsi arasında yaxınlıq vardır. Həmçi-nin, "Avesta"da əsas motivlərdən biri olan Hörmüz və Əhrimən, yəni Xeyir və Şər motivi geniş mənada Şərq ədəbiyyatında, o cümlədən Azərbaycan klassik poeziyasında xüsusi yer tutmuş, əsas ideya daşıyıcısı olan süjetlərdən birinə çevrilmişdir".

Bu fikirləri dəstəkləyir ki,"Azərbaycan ədəbiyyatı tarixi"ndə yazılı ədəbiyyatın "Avesta"dan, ortaq ümumtürk Orxon-Yenisey abidələrindən və ərəb-müsəlman ədəbiyyatının nümayəndələri olan azərbaycanlı şairlərin əsərlərindən başlaması, alban şairi Dəvdəkin məşhur matəm qəsidəsinin həmin dövrün mükəmməl bədii nümunəsi kimi təhlilə cəlb edilməsi, müştərək olsa da, VII-X əsrlər ədəbiyyatının xüsusi bir mərhələ olduğunu bir daha elmi şəkildə təsdiq edir".

İsa Həbibbəyli araşdırmalarından sonra bu qənaətə gəlir ki, "göründüyü kimi, VII-X əsrlərdə Azərbaycan xalqı çətin ictimai-siyasi şəraitdə sənətkarların harada yaşamasından asılı olmayaraq, geniş dairədə böyük ortaq yazılı ədəbiyyat yaratmaq qüdrətinə malik olduğunu nümayiş etdirir. Bu mənada başlanğıc dövrü Azərbaycan yazılı ədəbiyyatı geniş coğrafi ərazidə və müxtəlif dillərdə yaranmış ortaq ümumtürk və ərəb-müsəlman ədəbi təfəkkürünün sintezindən yaranmış ədəbiyyatdır. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü ədəbiyyatımızın sonrakı tarixi mərhələlərinin möhkəm təməllərini təşkil edir. Ümumtürk və ərəb-müsəlman ədəbi-ictimai fikrinin, ölkədaxili proseslərin qarşılıqlı əlaqəsi və sintezi yaradıcı mühitdə geniş dünyagörüşün formalaşmasına, bu zəmində böyük ədəbiyyatın yaranmasına yol açmışdır.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı 7 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"ndə yazılı ədəbiyyatın ortaq ümumtürk Orxon-Yenisey abidələrindən və ərəb-müsəlman ədəbiyyatını yaratmış azərbaycanlı şairlərin əsərlərindən başlaması müştərək olsa da, VII-X əsrlər ədəbiyyatının xüsusi bir mərhələ olduğunu bir daha elmi şəkildə təsdiq etdiyini, yazılı ədəbiyyatın ortaq başlanğıc dövrü özündən sonra meydana çıxmış Azərbaycan intibah ədəbiyyatının start nöqtəsi olduğunu, bu, qədim dövr ədəbiyyatı ilə XI-XII əsrlərin intibah dövrü Azərbaycan ədəbiyyatı arasında möhkəm mənəvi körpü olduğunu bildirir.

B. İntibah dövründən orta əsrlər

Azərbaycan ədəbiyyatı mərhələsinə İsa Həbibbəyli dövrləşdirmə konsepsiyasının Üçüncü mərhələsini "İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII)" adlandırır. Burada əsas məsələyə keçməzdən öncə Azərbaycan tarixini, ölkənin inkişafını ortaya qoyur. VII-X əsrlərdə qədim türk sivilizasiyası ilə islam dini dünyagörüşünün yanaşı inkişaf etməsi, tədricən qarşılıqlı inteqrasiya proseslərinin genişlənməsi, X əsrdən "Ərəb xilafəti imperiyası həm də coğrafi mənada daha çox Şərq hadisəsi kimi" (Adam Mets) mövcud olması, İslamın "dünyanın böyük bir hissəsində yeni bir epoxanı" meydana çıxarması, mühüm sivilizasiya faktına çevrilməsi açıqlanır.

Azərbaycanda XI-XII əsrlərdə feodal dövlətlərin yaranıb inkişaf etməsi tarixinə toxunur. Tarixçilərin "inkişaf etmiş feodalizm dövrü" hesab etdikləri bu mərhələdə Azərbaycan ərazisində Səlcuqlar, Atabəylər və Şirvanşahlar dövlətlərinin regionda mühüm nüfuza malik olmaları ölkədə bütün sahələr, o cümlədən də elm, təhsil, ədəbiyyat və mədəniyyət istiqamətində də sürətli inkişafa təkan verməsi, Azərbaycanın Təbriz, Ərdəbil, Naxçıvan, Gəncə, Marağa, Şamaxı, Qəbələ, Dərbənd, Beyləqan kimi şəhərlərində ticarət, memarlıq və sənətkarlığın genişlənməsi, iqtisadi-mədəni mühitin yaranması, memar Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində ucaltdığı məşhur Mömünə Xatun məqbərəsi Şərq memarlıq sənətinin möhtəşəm əsəri kimi böyük şöhrət qazanması, qədim karvan yollarının Avropa ilə Asiyanı əlaqələndirən İpək yolu ilə birləşməsinin regionda və ölkədə, cəmiyyət həyatında bütün istiqamətlər üzrə böyük yeniləşmə və inkişafa səbəb olması açıqlanır: "Bütün bunlar Şərq ölkələrinin ictimai-mədəni mühitində və iqtisadi inkişafında intibah hadisəsinin baş verməsi ilə nəticələnmişdir. Şərq intibahı və ya Müsəlman renessansı adlandırılan bu mühüm siyasi-iqtisadi və mədəni hadisə Çindən-Hindistana, Orta Asiyadan-İrana, Anadoludan-Qafqaza qədərki böyük coğrafiyada, o cümlədən Azərbaycanda özünün inkişaf etmiş böyük ədəbiyyatı və incəsənətini, mükəmməl elmi məktəblərini meydana çıxarmışdır".

Elmin, maarifçiliyin inkişafının ölkəmizdə ədəbiyyatın, incəsənətin və təhsilin inkişafına ciddi təsir göstərdiyi, ərəb-fars dillərində yaranan zəngin elmi



irslə dərindən tanış olmalarının "Azərbaycan alimlərinin Şərq miqyasında yaranan elmi ideyaları dərindən mənimsəmələri ilə birlikdə, həm də bu zəmində yeni ideyaların, fərqli fərziyyələrin və versiyaların irəli sürülməsi ilə" müşayiət olunduğu, "məhz bu zəmində XI-XII əsrlərdə Azərbaycan elminin bütün Şərq miqyasında qəbul olunan görkəmli nümayəndələri"nin yetişib formalaşması araşdırılır. Filosoflardan Əbülhəsən Bəhmənyar Azərbaycani (993-1066), Eynəlqüzat Miyanəçi (1089-1131), Şihabəddin Sührəverdi (1154-1192), tanınmış ədəbiyyatşünas Xətib Təbrizi (1030-1109), Əbülqasım əl-Qureyşi, Fəxrəddin Əbülfəzl-əl Musanna ət-Təbrizi və başqaları kimi görkəmli elm xadimlərini misal gətirir, onların "türk-müsəlman dünyası elmi fikrini yüksək səviyyədə təmsil etmək miqyasında etiraf olunan alimlər" olduğunu söyləyir. Onların əsərlərindəki dünyanın, həyatın və cəmiyyətin dərindən dərk olunması, dərin dini və fəlsəfi təlimlər, ictimai-siyasi proseslərin idarə edilməsi haqqındakı fikirlərin və ideyaların "bədii ədəbiyyatın yaradıcılarının əsərlərində cəmiyyət hadisələrinə marağı qüvvətləndirmiş, tarixilik, fəlsəfi dərinlik və müasirlik baxışlarının aparıcı mövqe tutmasına" şərait yaratmış olduğunu söyləyir.

Elmi intibah dövrünü "Azərbaycan ədəbiyyatının əsas ilham mənbələrindən biri, hərəkətverici qüvvəsi" bilir: "Qədim antik ideyalar da Azərbaycan ədəbiyyatına elm vasitəsilə gəlmişdir. Azərbaycan elmində böyük yunan filosofu Aristotel (e.ə.384-e.ə.320) təliminə artan maraq bədii ədəbiyyatda da əkssəda tapmışdır. İntibah dövrü Azərbaycan ədəbiyyatının görkəmli yaradıcılarının yaradıcılığında özünə geniş yer tapmış antik dövr elmi fikrinə müraciətin kökündə qədim yunan filosoflarının əsərlərinin ərəb dilinə tərcümə olunması dayanırdı. Azərbaycan ədəbiyyatı klassiklərinin ərəbdilli tərcümələr vasitəsilə elmi və ictimai fikrin zəngin xəzinəsi olan antik irsdən yaradıcı şəkildə istifadə etmələri yeni tipli bədii əsərlərin meydana çıxmasına ciddi təsir göstərmişdir. Antik ədəbiyyatın yenidən dirçəldilməsi ictimai fikirdə və ədəbiyyatda dövrün ictimai-fəlsəfi ideyalarının tərənnüm olunmasına geniş qapı açmışdır. Türk-islam sivilizasiyası və antik yunan mədəniyyətinin inteqrasiyası Şərq miqyasında böyük elmi məktəblərin və qüdrətli alimlərin meydana çıxması ilə nəticələnmişdir". Türk-islam elmi irsinin intibah dövrü elmi və ictimai fikrinin ən aparıcı istiqaməti səviyyəsinə qalxdığını, bunun da öz ardınca elmi irsin böyük ədəbiyyatın qüvvətli dayağına çevrilməsində həlledici amil olduğu bildirilir.

İntibah dövrünü araşdırır, bu dövrü Şərq aləmində, o cümlədən türk xalqlarının həyatında da elm amilinin meydanını genişləndirdiyini vurğulayır. XI-XIII əsrlərdə türk dünyası elminin liderləri yetişmiş, bu dövrdə türk-islam sivilizasiyası Mahmud Kaşğarlının (1005-1102) "Divani-lüğət-it türk", Əhməd Yasəvinin (1103-1166) "Divani-hikmət", Süleyman Bakırqaninin (...-1186) "Bakırğani kitabı", Əhməd Yuqnəkinin "Hibatül-həqaiq" əsərləri kimi "möhtəşəm ümumtürk abidələrini" bəşəriyyətə bəxş etmiş, Azərbaycan alimi Nəsirəddin Tusi (1201-1274) əsərlərində bir çox böyük elmi ideyaları "Avropa alimlərindən çox qabaq irəli sürmüş və nəzəri cəhətdən əsaslandırmış", Anadolu türklərinin ədəbiyyatında Yunis Əmrə (1240-1320), Mövlana Cəlaləddin Rumi (1207-1273) miqyasında qüdrətli mütəfəkkir sənətkarlar dünyanın diqqətini cəlb etmişdir. Əhməd Fakih (XIII əsr) və Xəlil oğlu Əlinin yaradıcılığı (XIII əsr), "əski qıpçak ədəbiyyatındakı "Kodeks Kumanikus" mətnləri, habelə Misir qıpçak ədəbiyyatı da "bütövlükdə bu tarixi epoxanın, müsəlman intibahının" bəhrəsidir.

Elmlə ədəbiyyatın qarşılıqlı əlaqəsini araşdırır, intibah dövrü Azərbaycan ədəbiyyatında mütəfəkkir tipli sənətkarların yetişib formalaşmasını şərtləndirdiyini, dövrün şairlərinin həm də alim-mütəfəkkirlər səviyyəsində qəbul olunduqlarını yazır: "Ustad Nizami Gəncəvinin "Həkim Nizami", Qətran Təbrizinin "alim-şair" kimi adlandırılmaları bu böyük təfəkkür sahiblərinin fəaliyyətlərində elm və ədəbiyyatın birlikdə iştirak etməsinin əlaməti bilən İsa Həbibbəylinin fikrincə, dövrün tanınmış sənətkarlarından Mücirəddin Beyləqaninin Atabəylər, Əbül-Üla Gəncəvinin Şirvanşahlar saraylarında "məliküş-şüəra" rütbələri qazanmaları və həmin missiyanı həyata keçirmələri də onların bədii yaradıcılıqdan başqa, həm də sarayların ictimai həyatına, ədəbiyyatın tələblərinə dair geniş bilik sahibi olmalarının göstəricisi idi. Müasirlərinin Mücirəddin Beyləqaniyə "Məlikül-kəlam" kimi verdikləri qiymətdə ədəbiyyatla yanaşı, elmi dünyagörüşün də özünəməxsus payı olmuşdur.

Azərbaycanda XI əsrdən etibarən farsdilli ədəbiyyatın genişləndiyi, "Ərəbdilli ədəbiyyat mərhələsindən (VIII-XI əsrlər) sonra Azərbaycan ədəbiyyatının bütün Şərq miqyasında tanınmasına və şöhrət qazanmasına" yol açdığını qeyd edən İsa Həbibbəyli ərəbdilli ədəbiyyatdan farsdilli poeziyaya keçidin "Azərbaycan ədəbiyyatının ümumşərq miqyasında daha böyük ədəbi rəqabət mühitinə daxil olmasına" səbəb olduğunu açıqlayır. Görkəmli Azərbaycan şairlərinin fars dilində yaratdıqları qüdrətli əsərlərin bütün Şərqdə tanınması, müzakirə mövzusu olması, böyük maraq kəsb etməsi, İntibah dövrü Azərbaycan ədəbiyyatının görkəmli simalarının fars dilində yazdıqları əsərlərində Şərq mövzusunun geniş yer tutması, türk-müsəlman dünyasının tanınmış şəxsiyyətlərinin obrazlarının yaradılması, bir çox mühüm tarixi ha-disələrin ədəbiyyata gətirilməsinin ədəbiyyatın üfüqlərini genişləndirməsi, dünyanın böyük bir ərazisində bu ədəbiyyata marağı qüvvətləndirməsi, "bu yolla ümumşərq xarakterli Xosrov və Şirin, Leyli və Məcnun mövzuları"nın Azərbaycan ədəbiyyatına həmişəlik daxil olması, sonrakı dövrlərdə də, hətta XX əsrdə də Azərbaycan ədəbiyyatında bu mövzulara yenidən müraciət edilməsi araşdırılır.

***(Davamı var)***

***Gülxani PƏNAH***